İCBARİ TİBBİ SIĞORTA

TƏBİB
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

İcbari tibbi sığorta ilə təminata alınan tibbi xidmətin dövlət tibb müəssisəsində göstərilməsi mümkün olmadıqda mən nə etməliyəm?

Bu halda sizə xidmətin göstərilməsi üçün İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə müqaviləsi olan özəl tibb müəssisəsinə göndəriş verilir.

## GÖNDƏRİŞLƏR ÖDƏNİŞSİZ TƏQDİM OLUNUR!

## GÖNDƏRİŞ VƏRƏQƏSİ HANSI HALLARDA TƏLƏB OLUNUR?

- Dövlət tibb müəssisəsində yalnız stasionar şəraitdə (xəstəxanada yatış) göstərilən tibbi xidmətlər üçün
- Özəl tibb müəssisəsində həm ambulator,həm də stasionar şəraitdə göstərilən tibbi xidmətlər üçün

Göndəriş verilən tibb müəssisəsinə yaxınlaşdıqda şəxsiyyət vəsiqəsi və göndəriş vərəqəsi təqdim edilməlidir.

Göndəriş ilə özəl tibb müəssisəsində Xidmətlər Zərfi çərçivəsində göstərilən tibbi xidmətə görə vətəndaşdan ödəniş tələb oluna bilməz.

Pasiyentə özəl tibb müəssisələrində göndəriş vərəqəsi olmadan stasionar təcili tibbi yardım Agentliyin razılığı ilə icbari tibbi sığorta hesabına göstərilə bilər.

Vətəndaş göndərişlə lazımi tibbi xidmətin göstərildiyi müqavilələ özəl tibb müəssisələri arasından seçim edə bilər.

**GÖNDƏRİŞ VƏRƏQƏSİNİN ETİBARLILIQ MÜDDƏTİ 10 GÜNDÜR.**

Ətraflı məlumat üçün **QR kodu** oxudun

its.gov.az

1542 ÇAĞRI MƏRKƏZİ